# Müharibə cəlladları ədalət mühakiməsi qarşısındadırlar



**Azərbaycanın mülki əhalisinə qarşı ağır cinayət törədən və terroru maliyyələşdirən ermənilər Vətən savaşından sonra beynəlxalq hüquq prinsipləri çərçivəsində həbs olunurlar.**

Bu müharibə canilərinin törətdikləri vəhşiliklərə görə layiqli cəzalarını almaları üçün ölkəmizdə bütün lazımi tədbirlər həyata keçirilir. Mülki insanları, körpələri, qocaları belə, vəhşicəsinə qətlə yetirən həmin canilər əlləri qandallanaraq Bakıya gətirilirlər.

Milli Məclisin deputatı Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, müharibə cinayətkarlarının həbs edilməsi həm beynəlxalq hüquq prinsiplərinə, həm də ölkə qanunvericiliyinə uyğundur. Eyni zamanda bu, Azərbaycanın yenilməz gücünü və qüdrətini göstərən faktorlardadır. 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror tədbirlərində zəfər əldə edən Azərbaycan müharibə cəlladlarının layiqli cəzalarını almalarını da hədəf seçib. Həmin cinayətkarların əksəriyyəti uzun illər idi ki, beynəlxalq axtarışa verilib, onlar haqda cinayət işi açılıb.

"Xüsusilə son vaxtlar Azərbaycan mülki əhalimizə qarşı cinayət törətmiş erməni terroristlərin beynəlxalq hüquq prinsipləri çərçivəsində həbslərini həyata keçirir. Məsuliyyətdən yayınmaq istəyən həmin müharibə caniləri əlləri qandallanaraq Bakıya gətirilirlər. Bu, mülki vətəndaşlara qarşı etdikləri cinayətləri utanmadan etiraf edən və bu murdarlıqlarını "qəhrəmanlıq" kimi təqdim edən bütün erməni cəlladlarına dərs olmalıdır. Ermənistan və havadarları başa düşməlidirlər ki, hüququn aliliyi Azərbaycanın əsas prinsiplərindəndir və dövlətimiz cinayətkarlara qarşı sərt mövqeyini nümayiş etdirir", - deyə deputat vurğulayıb.

Vüqar Bayramov qeyd edib ki, otuz il ərzində Azərbaycana qarşı cinayətlər törətmiş, əli məsum insanların qanına bulaşmış xunta rejiminin bütün nümayəndələri layiqli cəzalarını almalıdırlar: "Ruben Vardanyan, Vaqif Xaçaturyan, Arayik Harutyunyan kimi irqi ayrı-seçkilik zəminində Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri törətmiş erməni qatillərin sayı çoxdur. Həyata keçirilən tədbirlər nəticəsində həmin cinayətkarlar bir-bir həbs olunaraq cəzalandırılmalıdırlar. Onların layiqli şəkildə cəza alması xalqımızın gələcəyi üçün əhəmiyyətlidir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 7 oktyabr.- S.9.